# *Yaqub EYYUBOV:* "Bu il iqtisadiyyatımız daha da güclənəcək"






Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov yanvarın 28-də Mingəçevir şəhərində ictimaiyyət nümayəndələri, sahibkarlar, təhsil işçiləri, gənclər və ziyalılarla görüşüb.

Baş nazirin birinci müavini Yaqub Eyyubov görüşün Prezident İlham Əliyevin tapşırığına əsasən təşkil olunduğunu deyib. O, regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda Prezident İlham Əliyevin çıxışından irəli gələn vəzifələrdən danışaraq bildirib ki, bu gün dünyada iqtisadi böhran daha dərinləşib. Dünya iqtisadiyyatı hələ ki böhrandan çıxa bilmir. Buna baxmayaraq, Azərbaycanda bir çox məsələ öz həllini tapmaqdadır. Ölkəmizdə nəzərdə tutulan bütün proqramlar icra edilir. O qədər də asan olmayan geosiyasi vəziyyəti və qlobal iqtisadi böhranı nəzərə alsaq, əlbəttə ki, bunlar ölkəmizin böyük uğurudur. Dövlət başçısının dediyi kimi, 2015-ci ildə bütün sosial proqramlar icra edilib və hazırda da davam etdirilir. Baxmayaraq ki, ölkəmizin maliyyə vəziyyəti əvvəlki illərdəki kimi deyil, amma bu il bütün sosial proqramlar icra olunacaq.

Yaqub Eyyubov, həmçinin bildirib ki, bu il maaşlar, pensiyalar, sosial müavinətlər artırılıb. Bu da ölkəmizin sosial siyasətinin əsasını təşkil edir. Sosial müdafiə paketinin parlamentə təqdim edilməsi, qiymətlərə nəzarət, eyni zamanda, dərin iqtisadi islahatların aparılması dövlətimizə imkan verəcək ki, bu vəziyyətdən də uğurla çıxsın. Prezident İlham Əliyevin bildirdiyi kimi, 2016-cı il ciddi iqtisadi islahatlar ili olacaq. Artıq müvafiq qərarlar qəbul edilib, qanunvericiliyə dəyişikliklər olunub. Bu il bizim iqtisadiyyatımız daha da güclənəcək.

Sonra "Mingəçevir İzolit" ASC-nin sədri İsmayıl Məmmədov, "Mingəçevir Texniki-Rezin" ASC-nin sədri Vaqif Əsədov çıxış edərək dövlət proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda Prezident İlham Əliyevin verdiyi tövsiyə və tapşırıqlara uyğun olaraq yerli bazar üçün rəqabətqabiliyyətli daha çox çeşidli məhsullar istehsal etməyi və işçilərin sayını artırmağı qarşıya məqsəd qoyduqlarını bildiriblər. Sahibkarlar rəhbərlik etdikləri zavodların fəaliyyət istiqamətləri, istehsal olunan məhsullar barədə məlumat veriblər.

Bildirilib ki, dövlət başçısının idxal əvəzinə yerli istehsalın həcminin artırılması ilə bağlı tapşırığı sahibkarları işə daha ciddi yanaşmağa sövq edib. Əminlik ifadə olunub ki, Prezident İlham Əliyevin son vaxtlar gördüyü mühüm tədbirlər, qəbul etdiyi qərarlar Mingəçevirdə də sənayenin inkişafına güclü təkan verəcək.

Məlumat verilib ki, şəhərdə "Mingəçevir Su Elektrik Stansiyası silsiləsi" MMC, şüşə-plastik və polietilen borular istehsal edən "Mingəçevir İzolit" ASC, maşınqayırma və neft avadanlıqları istehsalı üzrə ixtisaslaşan "Azneftmaş" ASC, "Akkord" Şirkətlər Qrupunun Mingəçevir Maşınqayırma Zavodu, "Azərkabel" ASC və Bakı Dəmir-Beton Məmulatları Zavodunun filialı fəaliyyət göstərir. "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC isə hazırda Mingəçevirin və ölkənin ən iri enerji istehsalı müəssisəsindən biridir. Bu gün "Mingəçevir Texniki-Rezin" və "Azərkabel" zavodlarının bəzi sexləri fəaliyyətdədir.

Mövcud problemlərdən də danışan sahibkarlar Mingəçevirdə hələ keçmiş sovet dövründə yaradılmış iri sənaye müəssisələrindən bəzilərinin kiçik istehsal sexi səviyyəsində fəaliyyət göstərdiyini bildiriblər. Onlar yerli və xarici bazar üçün rəqabətqabiliyyətli məhsullar istehsal etmək imkanına malik olduqlarını, bunun üçün Mingəçevirdə kadr potensialının mövcudluğunu diqqətə çatdırıblar. Qeyd olunub ki, müəyyən maliyyə çatışmazlığı və idxalın təsiri səbəbindən məhsulun alıcılıq qabiliyyəti aşağı düşür.

Sahibkarlar şəhərin köhnə sənaye müəssisələrinin fəaliyyətinin yenidən bərpası və xarici idxalın qarşısının alınması məqsədilə Mingəçevirdə avtomobil şinləri, şüşə, dəmir-beton məmulatları, xalça istehsalının mümkünlüyünü qeyd edib və buna kömək göstərilməsini xahiş ediblər. Vurğulanıb ki, həmin müəssisələrin fəaliyyətinin yerli və xarici investorların iştirakı və dövlətin köməyi ilə bərpa edilməsi işsizliyin aradan qaldırılmasına mühüm töhfə olardı.

Çıxışlarda bildirilib ki, Mingəçevir şəhərinə daim diqqət və qayğı göstərən Prezident İlham Əliyev son illər şəhərin inkişafı ilə bağlı bir neçə sərəncam imzalayıb. Hazırda Mingəçevir şəhərində sənaye potensialının gücləndirilməsi, müasir infrastruktur və istehsal müəssisələrinin yaradılması, həmçinin yeni iş yerlərinin açılması istiqamətində işlər görülür. Mingəçevir Sənaye Parkının və Yüksək Texnologiyalar Parkının yaradılması ilə bağlı tədbirlər davam etdirilir. Görülən işlər şəhər əhalisi tərəfindən yüksək qiymətləndirilir və bu parklar gələcəkdə işsizlik probleminin həllinə əhəmiyyətli dərəcədə kömək edəcək.

Baş nazirin birinci müavini görüşdə qeyd olunan problemlərin aradan qaldırılması, şəhərin daha da inkişafı ilə bağlı sahibkarların və ictimaiyyət nümayəndələrinin müraciət və təkliflərinin qeydiyyata alındığını, onların həllinə kömək göstəriləcəyini bildirib.